# Vahabzadə fenomeninin sənət və şəxsiyyət bütövlüyü



Mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirələridir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı.

"Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular.

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının ümummilli lideri***

Siz yaradıcılığını Vətənimizin azadlığı, müstəqilliyi və bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustadlarımızdansınız.

Poeziya sənətimizin ənənələrini zamanın sınaqlarından çıxaran və yaşadan bir şair kimi adınız ölkəmizdə daim ehtiramla çəkilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bəxtiyar Vahabzadə sözün əsl mənasında şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır. Dili şirəli və koloritlidir. Vahabzadənin poeziyası düşüncələr poeziyasıdır. Bu düşüncələr bəzən həyatın üst qatlarına toxunsa da, şeirlərinin bir qismində ayrı-ayrı motivlər – məsələn, yaxınlaşmaqda olan qocalığın kədərli mücadiləsi olan ağaran saçlar motivi təkrar olunsa da, ümumiyyətlə, Vahabzadənin poeziyası müasir Azərbaycan ədəbiyyatının maraqlı hadisələrindəndir.

***Rəsul RZA***

Bəxtiyar Vahabzadə fitri şairlik istedadı sayəsində hələ gənc yaşlarından oxucuların sevməyə başladığı, həmişə diqqətlə izlədiyi və böyük ümid bəslədiyi xoşbəxt sənətkarlardandır...

...Bəxtiyar Vahabzadənin qəhrəmanı ilə özü arasında ziddiyyət yoxdur.

***Mehdi HÜSEYN***

Bəxtiyar poeziyası döyüşdür – o, ictimai haqsızlıqla, biganələrlə, şöhrətpərəstlərlə, ikiüzlülərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür. Bəxtiyarın zəkalı, tutarlı, qaynar, xoşsözlü şeiri gözümüzün qarşısında doğma lövhələr yaradır; başı qarlı Kəpəz, Şahdağı, Savalan, Kürün, Arazın uğultulu qırovları, Muğanın, Şirvanın il boyu yaşıl donlu,ucsuz-bucaqsız vadiləri vəsf olunur; onun şeirində coşğun Xəzər, mavi, zümrüd səma, mehriban cənub günəşimiz canlanır.

***NİYAZİ***

Yalnız millətinin adından danışan şair milli şair olur. Bəxtiyar Vahabzadə məhz belə şairdir.

***Yaşar QARAYEV***

Sovet senzura sisteminin dar çərçivələriində də Bəxtiyar Vahabzadə öz sözünü deyə bilmiş, hələ o illər Şəki qəzetində çap etdirdiyi "Gülüstan" poemasında xalqımızın tarixi faciəsi haqqında, bölünməsi, ikiyə ayrılması, parçalanması və əsarətə düşməsi haqqında təsirli, yanıqlı bir dillə söz açmışdı. Azad, müstəqil Azərbaycan uğrunda mübarizənin çətin yollarında Bəxtiyar müəllimi həmişə ön sıralarda görmüşük. Hər bir böyük şairimiz kimi, Bəxtiyar Vahabzadənin də bəzən başa düşülmədiyi, niyyətinin, sözünün tərs yozulduğu məqamlar olub. Amma bütün böyük sənətkarlar kimi o, səbir, dözüm sınağından da ləyaqətlə keçə bilib.

***ANAR***

...Bəxtiyar Vahabzadə bütün ölkədə tanınan və sevilən şairdir. Onun poeziyasında şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb...

***Oljas SÜLEYMENOV***

B.Vahabzadə yaşlı nəslin hafizəsində özünə möhkəm yer tutan cavidlərin, cavadların, müşfiqlərin, ildırımların dediklərini yeni mərhələdə yeni nəslə deməyə çalışır, tapıntılarını poetik təzadlar üstə quraraq sətiraltı mənalara "enir" və bu yaradıcılıq axtarışları onu başqa müəlliflərdən fərqləndirirdi.

***Nəriman HƏSƏNZADƏ***

Bəxtiyar Vahabzadənin yaradıcılığı insanın mənəvi və ictimai bütövlüyünə mane olan hər cür çəpərlərə qarşı üsyan poeziyasıdır.

***Sabir RÜSTƏMXANLI***

Şair hər şeirində təbiidir, çünki o, səmimidir, ürəyiaçıqdır, ədabaz deyil, sünilikdən uzaqdır. Onun poeziyasında ağır və eyni zamanda çəkisiz, şəffaf və əsrarəngiz poetik iksir var.

***Pavlo MOVÇAN (Ukrayna)***